# XALQIMIZIN YENİ YAZARI - PARLAQ İSTEDAD

## *Sevindik Nəsiboğlunun "Suverenliyimizi təmin edənlər" kitabına rəy-düşüncələrim*

Çox vaxt deyirlər ki, yeni nəsil həyatı bilmir, vətən haqqında düşünmür, oxumur, öyrənmir. Ancaq mən bu sözün cavabında elə birinci böyük qələbəmizin tarixi əhəmiyyətindən danışarkən Ali Baş Komandanın dediyi sözləri yada salıram: "Azərbaycan ordusunun əsas döyüşən qüvvəsi yeni nəsildir, mənim zamanımda doğulub-böyümüş oğullardır". Bəlkə də olduğu kimi demədim, amma məzmun bundan ibarətdir. Demək, Azərbaycan əsgəri kimi forma geymiş yeni nəsil vətənin nə demək olduğunu, torpağın nə üçün əzizdən əziz olduğunu yaxşı bilir. Əlbəttə, bunun üçün ictimai mühit əsas şərtdir. Ailə tərbiyəsi, məktəb mühiti - bütün bunların hamısı mühüm şərtlərdir. O da var ki, Azərbaycanın qalib Prezidenti bütüb çıxışlarında Azərbaycan gənclərinə sevgisini və inamını bəyan edib. Zənnimcə, Ali Baş Komandanın Azərbaycan ordusu ilə, Azərbaycan gəncləri ilə bağlı dedikləri əsl vətənpərvərlik dərsliyi kimi öyrənilməyə layiqdir.

Söz yox ki, Azərbaycan əsgərinin vətənə, torpağa sədaqət ruhunda tərbiyə olunması üçün Azərbaycan ziyalıları da öz qüvvələrini əsirgəməyiblər. Onlar Ulu Öndərin Azərbaycançılıq amalına sədaqət nümayiş etdirərək gənclərimizin sağlam düşüncə ilə böyüməsi naminə əgər belə demək mümkünsə, öz sözlərini əsirgəməyiblər. Əlbəttə, yaşlı nəsil yazıçılar vətən sevgisinin nə demək olduğunu yaxşı bilir. Amma daha yaxşısı odur ki, bunu - vətən, torpaq sevgisinin mahiyyətini gənc yazıçılar da qədərincə anlayır və bilirlər.

Mən Sevindik Nəsiboğlunun naşiriyəm. Çoxlu kitablarını nəşr etmişəm. Onu da deyim ki, Sevindik Nəsiboğlunun kitablarını nəşr etmək heç də asan başa gəlmir. Çünki onun kitabları şablon dəst-xəttlə hazırlanmır. O, yazılarında portret şəkillərdən, tarixi faktları əks etdirən fotolardan, bir sözlə, sənədli xronikadan da geniş şəkildə istifadə edir. Kitab çapı ilə məşğul olanlar yaxşı bilirlər ki, şəkilli kitabların çapı nə qədər çətindir və eyni zamanda çox məsuliyyətlidir. Çünki mətn daxilində hər hansı bir cüzi resaktə səhifələri yerindən dəyişə bilir. Bu da nə qədər əlavə əziyyət və problem deməkdir. Bir sözlə, biz Sevindik Nəsiboğlu ilə işləməyin bir növ təcrübə yolunu artıq keçib qurtarmışıq. Onun kitabın hazırlanma prosesindəki məsuliyyətli yanaşmaları, diqqəti məni xüsusilə təsirləndirir. Gənc olasan, hələ həyatın bərkini, boşunu qədərincə bəlkə görməmiş olasan, amma bu qədər məsuliyyət hiss edəsən.

Bəli, xüsusi məsuliyyət tələb edən, rəngli şəkillərlə çapa təqdim olunan belə bir kitabı Sevindik oxucularına təqdim edir. Rəngli şəkillər, hər bir yazının hazırlıq prosesindəki yerini dəqiq təyin etmək, xronoloji ardıcıllığı gözləmək... bütün bunlar Sevindik Nəsiboğlunun bir sənətkar kimi artıq öz kitabı üçün müəlif məsuliyyətinin nə demək olduğunu bilməsidir.

Sevindik Nəsiboğlunun kitabı "Antiterror şəhidləri" adlanır. Tarixdə analoqu olmayan hadisə baş verdi. Bircə günün tamamına yetməmiş Azərbaycan ordusu bütün Qarabağda otuz ildən çox bir müddət ərzində kök salmış seperatçıları darmadağın etdi. Onların zəngin cəbbəxanası, hərbi hazırlığı, uzaq ölkələrdən muzdla yığıb gətirdikləri quldur döyüşçüləri də bu savaşda kara gəlmədi. Demək, Azərbaycan əsgərinin hansı gücdə olduğunu, onun qüdrətini təkcə bu savaşla da bilmək olar.

İndi qalır əsas məsələ: Yazıçılarımız bir günün qəhrəmanlarını sözə necə gətirəcəklər? Zənnimcə, elə təkcə Sevindiyin timsalında bu suala da nikbin cavab vermək olar. Sevindik Nəsiboğlu bütün imkanlarını səfərbər edib. Heç kimi unutmamağa çalışıb. Mümkün qədər antiterror şəhidləri haqqında dəqiq məlumatlar toplayıb və ən başlıcası, hər bir şəhidin doğulub-böyüdüyü mühiti, onun döyüş yolunu dəqiq öyrənib. Əgər belə olmasaydı, onda mətnlər müəyyən mənada bir-birinə qarışardı. Biz hər bir qəhrəmanı ayrılıqda xarakterizə edə bilməzdik. Doğrudur, müəllif hər bir qəhrəman haqqındakı məlumatları məhdud imkanlar daxilində yazıya gətirib kitaba yerləşdirib. Qəhrəmanlardan biri haqqında yazır: "Mehti Əmrah oğlu Abbasov 19




sentyabr 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ bölgəsində silahlanan separatçı erməni hərbi birləşmələrinə qarşı başlanan lokal antiterror əməliyyatlarında iştirak etmiş, Ağdam istiqamətində gedən döyüşlərdə fərqlənmiş, erməni qəsbkarlarının zərərsizləşdirilməsində və torpaqlarımızın azad olunmasında böyük rəşadət göstərmişdir. Əsgər Mehti Abbasov 20 sentyabr 2023-cü ildə Ağdam istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına Şəhidlik zirvəsinə ucalmışdır. Qəhrəmanımızın nəşi 21 sentyabr 2023-cü ildə doğulduğu Masallı rayonunun Sığıncaq kəndində torpağa tapşırılmışdır. Şəhidimiz subay idi. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Mehti Abbasov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir". Göründüyü kimi, müəllif qəhrəman haqqında faktlar əsasında təsəvvür yaratmağa çalışır. Hətta bədii təsvirlərə də o qədər geniş yer ayırmır. Çünki onun məqsədi antiterror şəhidləri haqqında xronikal mətnlər təqdim etməkdir. Başqa sözlə, dəqiq, müxtəsər salnamə yaratmaqdır. Biz hər bir faktın arxasında qəhrəmanların hansı gücdə olduğunu, hansı mənəvi yüksəlişdə dayandığını təsvirlərdən də duyur və dəqiq qəbul edirik.

Sevindik hər bir mətn daxili faktı dəqiq verir. Sanki bir neçə cümlə ilə oxucuda qəhrəmanın kimliyi haqqında təsəvvür yaradır: "Cəsur baş leytenant Ruslan Abbasov 19 sentyabr 2023-cü ildə Qarabağda silahlanan erməni separatçılarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror əməliyyatlarında böyük igidlik göstərərək döyüşmüşdür. Qızğın döyüşlərin getdiyi zaman separatçıların bir çox mövqeyini böyük ustalıqla məhv etmişdir. Ruslan Abbasov 19 sentyabr 2023-cü ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızın nəşi 20 sentyabr 2023-cü ildə Mingəçevir Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır".

Zamin Xəqani oğlu haqqındakı mətni də həyəcansız oxumaq mümkün deyil. Onun döyüş yolu 44 günlük savaşın içindən keçib. Böyük savaşın qəhrəmanı kimi antiterror əməliyyatında iştirak edib: "Azərbaycan Ordusunun baş leytenantı olan Zamin Abbasov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Zəngilanın, Laçının və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərmişdir. Tabeçiliyində olan hərbçiləri müharibənin sonunadək döyüşlərdən sağ-salamat çıxarmışdır. Müharibədən sonra Zamin Abbasov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. Vətən müharibəsi bitdikdən sonra Zamin Abbasov hərbi xidmətini davam etdirmişdir. 2021-2022-ci illərdə həyata keçirilən qısamüddətli əməliyyatlar zamanı tabeçiliyində olan hərbi qulluqçularla birgə şücaət göstərərək fərqlənmişdir". Zamin Abbasov 19 sentyabr 2023-cü ildə şəhid olub və Sumqayıtın Şəhidlər Xiyabanında uyuyur. O, Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə həlak olub. Hiss olunur ki, bu yerin adı Sevindiyi xüsusi həyəcanlandırır. Mən onun digər kitablarından aldığım məlumat əsasında deyirəm ki, onun mənsub olduğu ailə Xocavəndlə çox bağlıdır. Bəzən tanış bir yer-yurd adı bizdə xüsusi təəssürat yaradır. Onu da deyim ki, Sevindik Nəsiboğlu mənəvi mühitinə təsir edən faktların yaratdığı təəssüratlardan yetərincə yararlana bilir.

Abbaszadə Emin Faiq oğlu haqqında isə təqdim etdiyi qeydlər onun necə bir qəhrəman olduğunu tanımağa bəs edir: "Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Emin Abbaszadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir". İndi bu qeydləri bir-birinin arxasınca yazdıqca, Sevindiyin dəqiq xronika əsasında təqdim etdiyi məlumatları oxucu düşüncəmdən keçirərək ümumiləşdirməyə çalışdığım üçün qeyd etməliyəm ki, bu məlumatlar əslində onun gələcək romanlarının, povestlərinin, müharibə hekayələrinin əsasını təşkil edəcək. Sevindik sanki müharibənin gündəliyini yazır. Əslində elə müharibələrdən çox sonralar qələmə alınmış bədii əsərlər belə dəqiq mətnlərdən bəhrələnərək yaradılır. Bu mənada, mən Sevindik Nəsiboğlunun gələcək yazıçı taleyinə sözün həqiqi mənasında çox inanıram.

Bu kitabı vərəqləyən hər bir oxucu yəqin ki, mənsub olduğu yerin, yurdun adını da axtaracaq. Həmin oxucu özünün doğulub-böyüdüyü torpaqdan pərvəriş tapmış qəhrəmanların adlarını da gəzəcək və çox güman ki, Tovuz rayonundan olan oxucular Asim Cavanşir oğlunu dəqiq xatırlayacaqlar, şübhəsiz, onunla fəxr edəcəklər: "Şəhid kiçik çavuş Asim Cavanşir oğlu Abdullayev 10 dekabr 1982-ci ildə Tovuz rayonunun Vahidli kəndində anadan olmuşdur. Orta təhsilini Tovuz rayon Asif Sadıqov adına Vahidli kənd tam orta məktəbində almışdır. Orta məktəbdən məzun olduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tovuz rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində hərbi xidmətinə başlamışdır. Asim bir müddət hərbi xidmət etdikdən sonra ordudan tərxis olunmuş və mülki fəaliyyətinə davam etmişdir. Sonra isə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılmış, kursları müvəffəqiyyətlə bitirdikdən sonra Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu kimi yenidən ordu sıralarına qayıtmışdır. Hərbi xidmət müddətində döyüş hazırlığında, eləcə də qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə görə dəfələrlə hərbi hissə rəhbərliyi tərəfindən fəxri fərman və təşəkkürnamələrlə təltif edilmişdir. Həmçinin Asim Abdullayev "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə də təltif edilmişdir. İgidimiz 12 oktyabr 2022-ci ildə ailə həyatı qurmuşdu". Vaxt məhdud, manevr etmək üçün ərazi çox məhdud. Antiterror əməliyyatı belə bir məhdud vaxt və məhdud ərazi daxilində həyata keçirilirdi. Hətta Ali Baş Komandan göstəriş vermişdi ki, uşaqlara, qocalara, qadınlara, bir sözlə, mülki əhaliyə zərər vurulmasın. Bəlkə də tarixin ən nadir müharibələrindəndir ki, ümumiyyətlə, İkinci Qarabağ savaşında və antiterror döyüşlərində Azərbaycan ordusu dinc əhaliyə zərər vurmadı. Ali Baş Komandanın məramını ən müqəddəs tapşırıq kimi yerinə yetirdi. Bu, Azərbaycan xalqının humanizmi demək idi. Halbuki, erməni vandalları kimliyinə fərq qoymadan azərbaycanlıları kütləvi şəkildə qətlə yetirir və onları insanlığa yaraşmayan bir şəkildə kütləvi olaraq xəndəklərə gömürdülər.

*(Davamı var)*

***Şəddat CƏFƏROV***